UOT: 338. 45; JEL: L19

*Yusif Ariz oğlu AĞAYEV*
*Azərbaycan Kooperasiya Universitetinin doktorantı*

# İNNOVASİYA FƏALİYYƏTİNİN KONSEPTUAL ƏSASLARI VƏ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

*Xülasə*

Məqalədə innovasiya fəaliyyətinin formalaşması və inkişafının konseptual əsasları tədqiq olunur. Müvafiq sahədə olan tədqiqatçıların baxışları, onlardakı fərqliliklər dəyərləndirilir. Azərbaycanda innovasiya fəaliyyətinin inkişafı üçün yaradılan hüquqi mühit araşdırılmaqla, bu sahədəki problemlər müəyyən olunur.

***Açar sözlər:*** ***innovasiya, innovasiya fəaliyyəti, iqtisadi inkişaf, elmi-texniki tərəqqi.***

## *Giriş*

Beynəlxalq təcrübədə gedən iqtisadi inkişaf prosesləri dünya ölkələri kimi Azərbaycan Respublikasına da öz təsirlərini göstərməkdədir. Belə təsirlər biryönümlü olmayaraq, özünü sosial-iqtisadi inkişafda, ictimai və idarə proseslərinin təkmilləşməsində, cəmiyyətin demokratikləşməsində göstərməkdədir. Artıq inkişaf prosesləri arasında əsas təsir amili kimi innovasiya və elmi-texniki tərəqqini qeyd etmək xüsusi zərurətdən irəli gəlir. İnnovasiya və elmi-texniki tərəqqi bəşəriyyətin, cəmiyyətin, sosial-iqtisadi proseslərin növbəti minillikdəki əsas inkişaf meyillərini müəyyən etməklə, burada mühüm və aparıcı bir qüvvə kimi çıxış edir. Azərbaycanın müasir və perspektiv inkişafında davamlı sosial-iqtisadi yüksəlişin təmin edilməsi, öncə innovasiya fəaliyyətinin və elmi-texniki tərəqqinin müasir tələblərə uyğun təşkili və mütəmadi olaraq təkmilləşdirilməsi ilə sıx bağlıdır.

**İnnovativ inkişafın konseptual əsasları**

Müasir inkişaf və dərinləşməkdə olan qloballaşma prosesləri innovasiyaların və innovasiya proseslərinin əhəmiyyətini sürətlə artırmaqdadır. Bu proseslərə ekoloji, sosial, mənəvi və digər amillər də köklü şəkildə öz təsirini göstərməkdədir. Xüsusilə, innovasiya fəaliyyətinin elm və elm tutumlu, təkamül yönümlü mühüm məsələlərlə birbaşa başlılığı mövcud olan dövlətləri, inkişaf səviyyəsindən asılı olmayaraq bu proseslərdə daha da fəal iştirak etmək məcburiyyətində qoyur.

Müasir innovasiya fəaliyyəti yalnız Azərbaycan Respublikasının deyil, o cümlədən MDB-nin təşəkkülündə və inkişafında, demək olar ki, yeni bir sahə, anlayışdır. Lakin, SSRİ dövründə bu fəaliyyətlə oxşar proseslər həyata keçirilmiş, elm, elmi nailiyyətlərin inkişafı, onların iqtisadiyyatda (istehsal, xidmət və s.) və digər sahərdə (kimya, tibb, hərbi və s.) tətbiqinə nail olunmuşdur. Bir növ həmin dövrdə baş verən proseslər innovasiyanın inkişaf rüşeyiminin, nəzəri əsaslarının formalaşmasına müəyyən təsir göstərmişdir. Bütün bunlara baxmayaraq, inkişaf etməkdə olan dünyada, o cümlədən Azərbaycanda innovasiya amilinə, fəaliyyətinə, onun nəzəri və praktiki əsaslarına olan yanaşma daha konkretlik, təkmillik tələb edir. Belə ki, bütün bunlar mövcud fəaliyyətin inkişaf zərurəti, onun üçün yaradılacaq maddi-texniki bazanın mütəmadi olaraq müasirləşdirilməsi, inkişafı ilə bağlıdır.

İnnovasiya konsepsiyası yeniliyin, təkamül prosesinin müxtəlif fəaliyyət sahələrində, o cümlədən məhsulun istehsalının (xidmətlərin), bölgüsünün, mübadiləsinin və istehlakının mövcud sferalarında özünü büruzə verə bilər. Həmçinin, müasir innovasiya fəaliyyətinin nəticələri iqtisadiyyatda dominant, yüksək təsiredici qüvvəyə malik olub, artıq iqtisadi artımın əsas mənbələrindən birinə çevrilməkdədir. Müasir inkişaf meyillərinin tədqiqi sübut edir ki, innovasiya elmi-texniki tərəqqinin əsaslarının vacib təkamül mənbəyinə çevrilməklə, mövcud olan resurslardan daha səmərəli və maksimal fayda götürmək üçün xüsusi əhəmiyyət kəsb edir.

İnnovasiya anlayışının tarixi kökləri müəyyən qədər fərqlənsə də, lakin onlara olan baxışlarda ümumi konseptual yanaşmalar nəzərə çarpır. İlkin olaraq qeyd etmək lazımdır ki, innovasiya anlayışının hərfi mənasını latın mənşəyi ilə bağlayırlar, belə ki, burada müvafiq anlayış "təkmilləşmə

və ya yeniləşdirmə" (innoyalo) mənasını əks etdirir. Bəzi alimlər innovasiya anlayışına belə yanaşmanın qəbul edilməsini onun ümumilikdə elmi-texniki tərəqqi, müasir innovasiya fəaliyyətinin əsasları, nəzəriyyəsi ilə bağlılığını kifayət qədər əks etdirdiyini təsdiq edirlər. [3, s. 62] Digər tərəfdən, innovasiya anlayışına başqa yanaşma da mövcuddur. Onun ingilis mənşəli söz olub (innovation), yenilik, yeni ideya, ixtira və onların tətbiqi ilə bağlı olduğu əsaslandırılır. [4, s. 122] Həmçinin, innovasiya anlayışlarına hərfi mənada bir çox məntiqi yanaşmalar mövcud olsa da, lakin Qərb ədəbiyyatında onu daha çox insanın məqsədyönlü fəaliyyəti, elmi-texniki tərəqqinin, əsaslandırılmış yeni fikirlərin, ixtiraların iqtisadiyyat və digər sahələrə tətbiqi və bunun nəticəsində müəyyən edilən son nəticənin əldə olunması kimi dəyərləndirirlər. [5, s. 98]

İnnovasiya baxışının yaranmasının, onun ictimai, iqtisadi proseslərlə bağlılığının tədqiqini tarixi kontekstdə tədqiq etmək də məqsədəuyğundur. İnnovasiya fikrinin, anlayışının formalaşması, onun iqtisadi inkişafa dinamik təsirinin nəzəri-konseptual baxışlarının tarixi kökləri XVIII əsrə gedir. Həmin dövrlərdə fransız marifçisi Jan Kondorse elmin sənaye-industrial sistemlə bağlı olduğunu, onların təsərrüfat fəaliyyətinə müsbət təsir göstərdiyini əsaslandırmağa çalışmışdır. Onun baxışlarına görə, elmi nailiyyətlərin sənayeyə, istehsala tətbiqi həm elmin, həm də iqtisadi inkişaf proseslərinin tədricən artımına şərait yaradır. O, həmçinin insan amilinin bu tərəqqi prosesində qabaqcıl rol oynadığını danılmaz fakt sayırdı. [6, s. 67]

İnnovasiya anlayışına, onun məntiqi mənasına Adam Smitin baxışları da xüsusi maraq doğurur. Smit innovasiya və ya təkamül prosesinin təşəkkül tapmasında və inkişafında texniki tərəqqini, səmərəli və məhsuldar əməyi, onun bölgüsünü və istifadəsini zəruri sayır, bütün bu amillərin istehsalın təkmilləşməsinə, yeni məhsul istehsalına təsir etdiyini irəli sürürdü. [6, s. 71] Müvafiq yanaşmada dolayısı ilə olsa da insan amilinin, onun intellektual əməyinin, qabiliyyətinin, ixtirasının elmin tərəqqisi ilə əlaqələndirildiyi nəzərə çarpır. Smitin iqtisadi inkişaf, elmi-texniki tərəqqi və ya innovasiya fəaliyyəti üzrə konseptual baxışlarını, zənnimizcə, belə bir şəkildə səciyyələndirə bilərik: əmək bölgüsü – məhsuldarlıq – gəlir – mexaniki inkişaf – texniki tərəqqi.

İnnovasiya fəaliyyətini, onunla bağlı məsələləri daha əsaslı şəkildə David Rikardo tədqiq etmişdir. Onun nəzəriyyəsinə görə kəşf və ixtiraların iqtisadiyyata, sənayeyə tətbiqi səmərəsinin nəticəsi özünü əməyin daha dərinləşməsində, onun keyfiyyətinin artmasında və yeni bazarların fəth olunmasında göstərir. [7, s. 44] Qeyd edə bilərik ki, elmi-texniki tərəqqinin və təkamül prosesinin nəticələrinə olan geniş baxışlar Rikardoya bu sahədə öz nəzəriyyəsini formalaşdırmağa baza yaratmış, yəni görülən işin, məhsul istehsalının dəyərinin texniki tərəqqi ilə üzvi surətdə bağlı olması üzrə konseptual əsasları irəli sürməyə imkan vermişdir. Məhz onun tərəfindən ilk dəfə texniki tərəqqinin formaları və növləri müəyyən edilmişdir ki, bu yanaşmaya bir qədər sonra fərqli və həmin nəzəriyyənin inkişafı şəklində İ.A.Şumpeter münasibət bildirmişdir. Şumpeterin nəzəri yanaşmasına görə məhsul istehsalı, yeni məhsul satışı, xammal, resurs bazarlarının əldə olunması, müasir və təkmil istehsalın təşkili texniqi tərəqqinin inkişafı ilə üzvi surətdə bağlıdır. [3; 4] David Rikardonun texniki tərəqqi və inkişaf ilə bağlı əsərlərinin və baxışlarının nəticələri belə bir fikri əsaslandırmağa imkan verir: bu sahədə onun apardığı təhlil və tədqiqatların mənbəyi üç əsas istiqamətdən bəhrələnir.

Birinci istiqamət – əməkhaqqının artması kapital sahiblərini fəhlə və işçi əməyini daha mütərəqqi texniki vasitələrlə, texnologiyalarla əvəz etməyə sövq edir. Müvafiq fikir sonradan təkmilləşdirilməklə D.Xiksom və P. Samuelson tərəfindən irəli sürülmüşdür.

İkinci istiqamət - Rikardo ilk dəfə olaraq, texnoloji işsizlik problemini, onun yaranma mənbəyini açmışdır. Sonradan isə, mövcud yanaşmanı K.Marks özünün "Kapital" əsərində daha da təkmilləşdirmişdir. Həmçinin, həmin məsələyə müasir dövrdə qlobal inkişaf prosesləri mühitində A.Sovi də münasibət bildirmişdir. Müvafiq yanaşma, texniki tərəqqi və məşğulluq məsələləri üzrə baxışlar K.Frimenanın və L. Soetenin tədqiqatlarında da öz əksini tapır. [3; 4]

Üçüncü istiqamət – Rikardo əmək məhsuldarlığının dəyişmədiyi şəraitdə kəşf və ixtiraların faiz dərəcələrinə, istehsal olunan məhsullara və əməkhaqlarına təsirinin neytrallıq mövqeyini üstün tuturdu.





A.Smitin və D.Rikardonun innovasiya, onunla bağlı olan proseslər üzrə nəzəri baxışları, konseptual yanaşmaları, zənnimizcə, müasir dövrdə innovasiya fəaliyyətinin formalaşmasının, inkişafının elmi-metodoloji əsaslarının təşəkkülündə əvəzsiz rol oynayır. Aparılan tədqiqatlar göstərir ki, innovasiya fəaliyyəti, bu sahədə baş verən proseslər müxtəlif formada, bəsit və dəyişkən şəkildə təzahür etsə də, onlar daha erkən dövrlərdən inkişaf etməyə başlamışdır. Lakin, innovasiya amilinin, bu fəaliyyət növünün nəzəri və praktik əsaslarının dərin və geniş tədqiqi məhz XX əsrdən başlayaraq özünü büruzə verməkdədir.

İnnovasiya fəaliyyəti ilə bağlı əsaslı nəzəri fundamental tədqiqatların aparılma dövrü XX əsrin əvvəllərinə şamil olunur və bu tədqiatlarda N.D.Kondrayevin əməyi danılmazdır. Belə ki, Kondratyev birbaşa innovasiya fəaliyyəti, prosesləri ilə məşğul olmasa da, lakin o bazarda konyunkturanın tədqiqi, onun dəyişkənlik mərhələləri, bu mərhələlərin istehsal, iqtisadi fəaliyyət ilə bağlılığı, onun tərkibində baş verən yüksəliş və eniş meyilləri, bunların səbəbləri, digər bu kimi elmi və praktiki cəhətdən xüsusi əhəmiyyət kəsb edən araşdırmalar aparmışdır. Bütün bunlar da nəticə etibarı ilə onun innovasiya amilinin iqtisadiyyat, istehsal və s. sahələr ilə bağlılığının tədqiqində əsaslı müsbət inkişaf mənbəyi sayıla bilər. O, bazar konyunkturasının təqribən yarım əsrlik dövrü mərhələsini əsaslı şəkildə tədqiq edərək, belə bir məntiqi qanunauyğunluğu müəyyən etmişdir ki, iqtisadi inkişafda, istehsal prosesində yüksəliş və eniş dövrləri arasındakı əsas asılılıqlardan biri elmi-texniki tərəqqinin, yeni ixtiraların, kəşflərin, ideyaların tətbiqi ilə ciddi şəkildə bağlıdır. [8, s. 91] Onun bu sahədəki elmi araşdırmaları, əsaslandırmaları innovvasiya fəaliyyətinin nəzəri və fundamental əsaslarının inkişafında xüsusi əhəmiyyət kəsb edir. Zənnimizcə, Kondratyev bu sahədəki tədqiqatlarını, dolayı da olsa innovasiyanı yalnız iqtisadiyyat, istehsal, bazar amilləri ilə əlaqələndirmir, onu cəmiyyətin sosial-iqtisadi inkişafı, iqtisadi sistemin təkamülü ilə də bağlayır. Elmi-texniki tərəqqi və onun tətbiqi ilə bağlı N.D.Kondratyevin fikirləri Avstriya iqtisadçısı İ.A.Şumpeter tərəfindən dərindən tədqiq olunaraq, onun innovasiya və innovasiya prosesləri nəzəriyyəsinin daha mükəmməl şəkildə inkişafında istifadə edilmişdir.

Qeyd etmək lazımdır ki, innovasiya anlayışına, innovasiya fəaliyyətinə və proseslərinə yanaşmada Şumpeterin nəzəri-konseptual tədqiqatı və baxışları öz dərin və yüksək dəyərliliyi ilə seçilir. Şumpeter innovasiyada iqtisadi yüksəlişin əsas təkan mənbəyini görərək, belə bir fikir irəli sürürdü ki, iqtisadi artım, istehsal prosesinin inkişafı texniqi tərəqqi, texnoloji avadanlıq və digər bu kimi sahələrdə mütəmadi olaraq baş verən inqilabi dəyişiklik, təkamül prosesi olmadan həyata keçə bilməz. Həmçinin, bu amil yeni bazarların əldə olunması, bazara daha yüksək rəqabətqabiliyyətli məhsulun çıxarılması, bazar strukturunun və sisteminin müasir tələblər baxımdan təkmilləşdirilməsi ilə üzvi surətdə bağlıdır. Burada eyni zamanda innovasiyanın rəqabətqabiliyyətinin inkişafında mühüm rol oynaması fikri əsaslandırılır, məhsulun istehsalında və satışında qiymət amili innovasiya amilinə görə çıxış edir. Onun innovasiya anlayışına və ona olan baxışları "İqtisadi inkişafın nəzəriyyəsi" (1912) əsərində daha aydın şəkildə öz əksini tapmışdır. Burada o əsaslandırır ki, sahibkarlıq sektorunun inkişafı, onun məşğul olduğu sahədə daha müasir elmi-texniki nailiyyətlərin tətbiqi ilə sıx bağlıdır. Mövcud yanaşma bazarda sahibkarın üstün mövqedən çıxış etməsinə şərait yaratmaqla, sahibkar gəlirinin və mənfəətinin əsaslı şəkildə artmasına təsir edir, bu proses zəncirvari formada daha təkmil və daim inkişafla fərqlənən geniş təkrar istehsalın baş verməsinə şərait yaradır. Şumpeterin əsaslandırılmış elmi baxışlarının əhəmiyyəti bir də ondadır ki, o, innovasiya anlayışına nəzəri və praktiki baxımdan xüsusi diqqət yetirməklə, onun zəruriliyini geniş aydınlaşdırmaqla, bu prosesin mikro və makro iqtisadi inkişaf arasındakı qırılmaz əlaqəsini açır, gələcək sosial-iqtisadi inkişafın innovasiya fəaliyyətinin davamlı şəkildə həyata keçirilməsi ilə bağlı olması fikrini irəli sürür. Bir qədər sonra, Şumpeter (XX əsrin 30-cu illərində) innovasiya anlayışının elmi terminologiyada istifadə olunmasına nail oldu. Onun innovasiya anlayışını xarakterizə edən əsas əlamətlərinə aşağıdakılar şamil olunur: yeni texnikadan, texnologiyadan və müasir bazar infrastrukturundan istifadə edilməsi; məhsul istehsalının tərkibinin keyfiyyət və yararlılıq baxımından təkmilləşdirilməsi; yeni və səmərəli xammal və resurslardan istehsalda istifadə edilməsi; istehsalın təşkilinin, satışının və maddi-texniki bazasının müasir tələblər baxımından inki-

şafı; yeni bazarların fəth olunmasına nail olunması.

İ.A.Şumpeterin tədqiqat və əsərlərinin xüsusi əhəmiyyəti nəzərə alınaraq, innovasiya fəaliyyətinin nəzəri və praktiki əsaslarının inkişafı ilə bağlı sonradan digər alim və iqtisadçılar da onlara müraciət etmişlər. Belə ki, K.Frimenin, L.Soetenin, B.Lundvallın, R.Nelsonun və digər bira sıra iqtisadçıların bu sahədəki elmi əsərləri, apardıqları araşdırmalar buna nümunədir.

İnnovasiya nəzəriyyəsinin və fəaliyyətinin inkişafında 1940-1970-ci illərdəki proseslər öz əvəzsiz rolunu oynamışdır. Bu mərhələdə əsas diqqət innovasiyaların iqtisadi artımla bağlılığı yanaşmasına yetirilmişdir. Müvafiq sahədə qeyd edilən problemlərin tədqiqində, araşdırmalarda S.Kuznesin (Nobel mükafatı lauratı), C.Bernalın fikir və baxışları fərqlənir. Həmin alimlər özlərindən əvvəlki iqtisadçıların, xüsusilə də İ.A.Şumpeterin nəzəri-konseptual baxışlarını, yanaşmalarını daha da inkişaf etdirmişlər. Belə ki, Kuznes innovasiya anlayışına, onun inkişaf prosesinə tarixi dövrilik baxımından yanaşaraq, bu prosesin təkmilləşməsini siyasi-ictimai, sosial-iqtisadi və bazar tələbləri ilə əlaqəli əsaslandırmışdır. Onun əsaslandırmalarında elmi-texniki tərəqqinin, innovasiya sahəsində inqilabi dəyişikliyin zamanla, dövrlə bağlı çıxış etməsi nəzərə çarpır. [5, s. 89-90]

İnnovasiya nəzəriyyəsinin növbəti inkişaf mərhələsi XX əsrin 70-80-cı illərinə təsadüf edir. Müvafiq dövr yeni texniki dönüşün başlanması, sənayecə inkişaf etmiş dövlətlərin dünyada mövqeyinin möhkəmlənməsi, elmi-texniki tərəqqinin tətbiq sahələrinin genişlənməsi kimi innovasiya fəaliyyəti üçün xarakterik olan bir mərhələni əhatə edir. Bu dövrdə iqtisadçı-alimlərdən Q.Menş, Y.Van Deyn, K.Frimena, C.Klark, Y.V.Yakovec Şumpeterin və Kondratyevin nəzəriyyələrini təkmilləşdirərək, innovasiya proseslərinin və fəaliyyətinin müasir və gələcək dövrlə bağlılığı üzrə nəzəri-konseptual yanaşmalarını bildirmişlər. Həmçinin, bu yanaşmalarda innovasiyaya elmi-texniki tərəqqinin və iqtisadi inkişaf artımının, dövriliyinin mühüm və aparıcı tərkib hissəsi kimi yanaşılır, o, böhrandan çıxışın əsas mənbəyi hesab edilir. İnnovasiya nəzəriyyəsinin inkişafı ilə bağlı aparılan tədqiqatlarda S.Y.Qlazyein yanaşması da xüsusi maraq kəsb edir. Belə ki, o, elmi-texniki tərəqqinin, texniki inkişafın iqtisadiyyata təsirinin qiymətləndirilməsini müəyyənləşdirərək, innovasiya fəaliyyətinin ölkə və dünya iqtisadi inkişafına verəcəyi töhfənin əvəzsizliyini, yeni innovasiya potensiallarının yaradılması və müvafiq sahələrdə tətbiqinin bəşəriyyət üçün rolunu konkretləşdirmişdir. [9, s. 123]

1990-cı ildən başlayaraq hal-hazıradək innovasiya nəzəriyyəsinin əsasları üzərində aparılan tədqiqatların inkişaf coğrafiyası və istiqamət sahələri öz çoxşaxəliliyi ilə diqqəti cəlb edir. Məhz müasir dövrdə baş verən ictimai-siyasi, sosial-iqtisadi, ekoloji və digər ciddi hadisələr bir tərəfdən iqtisadi inkişafın, elmi-texniki tərəqqinin sürətlənməsinə, milli və beynəlxalq iqtisadiyyat sahələrində transformasiya proseslərinin sürətlənməsinə səbəb olmuşdursa, digər tərəfdən dünyada iqtisadi, maliyyə böhranının yaranmasına, siyasi-iqtisadi maraqlar baxımından münaqişə ocaqlarının sayının artmasına və bu kimi neqativ halların güclənməsinə də gətirib çıxarmışdır. Artıq innovasiya fəaliyyətinin, proseslərinin güclənməsini iqtisadçı alimlər, beynəlxalq maliyyə institutları, əksər dövlətlərin başçıları və digər rəsmi qurumlar, biznes nümayəndələri tam qətiyyətlə istəsələr də, lakin yaranmış mürəkkəb vəziyyət belə ciddi məsələlərin həllində ümumi fikir birliyinin, sosial-iqtisadi və idarəetmə sahəsində əsaslı islahatların aparılmasını, kifayət qədər maddi və maliyyə resurslarının olmasını zəruriləşdirir.

Son dövrlərdə innovasiya nəzəriyyəsinin tədqiqi ilə bağlı ABŞ iqtisadi məktəbinin apardığı araşdırmalar mövcud problemlərin aradan qaldırılması baxımından müsbət qiymətləndirilə bilər. Belə ki, bu məktəbin nümayəndəsi A.Şlezinqer ABŞ-ın ictimai-siyasi və sosial-iqtisadi həyatında baş verən son 30 illik dövrü əhatə edən hadisələr üzrə ümumiləşdirmələr və təhlillər aparmış, həmin dövrlərdə innovasiya fəaliyyəti və onunla bağlı meyillərin son yüksəliş və son eniş nöqtələri, onların yaranmasına təsir edən daxili və xarici təsir amilləri müxtəlif aspektlərdən qiymətləndirilmişdir. Müvafiq yanaşma Şumpeterin və Kondratyevin nəzəriyyəsindən bəhrələnsə də, lakin onun proseslərə yanaşma metodologiyası və qiymətləndirmə metodikaları daha geniş istiqamətli mürəkkəb və ciddi dəyişkənliyi ilə müşahidə olunan əsaslar üzrə formalaşır.





Son dövrün elmi yanaşmalarında innovasiya anlayışına, prosesinə baxışlar da müasirlik baxımından təkmilləşməkdədir. B.Tvissin tədqiqatlarında innovasiya – yeniliyin, elmi-texniki nailiyyətin son nəticələrinin idarəetmə obyektinin təkmilləşdirilməsi, iqtisadi, sosial, ekoloji və digər sahələrdə inkişafın təmin edilməsi məqsədi üçün tətbiq edilən bir məfhum kimi dəyərləndirilir. [10, s. 39] Təbii ki, belə yanaşma qloballaşmaqda olan dünyanın dəyişkən və inkişaf tələbindən irəli gəlir.

Bir sıra digər iqtisadçı alimlər bu məfhuma, anlayışa başqa cür yanaşırlar, belə ki, onların fikrincə innovasiya – davamlı bir proses olub, elmi fikirlərin, kəşflərin, ixtiraların və texnoloji yeniliklərin istehsal, xidmət sahəsində mütərəqqi dəyişikliyin əldə edilməsinə, onun praktiki tətbiqinə nail olunmasına və bütün bunların nəticəsi olaraq ictimai, sosial, iqtisadi səmərəyə çatılmasına gedən bağlılığı özündə ehtifa etməlidir. Beynəlxalq aləmdə innovasiya və innovasiya fəaliyyətinə olan baxışlardakı müxtəliflik bir-birilə ciddi ziddiyyət təşkil etmir. Belə ki, alimlərin bir qismi bu anlayış və fəaliyyəti tədqiqatın obyekti və predmeti ilə bağlayırlarsa, digər qismi onu məzmunla, fəaliyyət göstərdiyi istiqamət, verəcəyi fayda, əhatə dairəsi və digər bu kimi amillər ilə əlaqələndirirlər.

İnnovasiya anlayışına digər iqtisadçılar, alimlər əsasən yenilik, yeniləşmə nöqteyi-nəzərindən yanaşırlar, lakin bu baxışlar çox vaxt son nəticə bağlılığını ifadə etmədiyindən, müəyyən fikirdə bir mənalılıq özünü göstərir. Belə yanaşmada iqtisadi-istehsal münasibətləri üzrə əlavələrin edilməsi zərurəti meydana çıxır. İnnovasiya elmi yeniliklərin, nailiyyətlərin bazara müasir, rəqabətqabiliyyətli məhsulun çıxarılması ilə bağlı iqtisadiyyat, istehsal sahələrinə tətbiqini həyata keçirməlidir.

**Azərbaycanda innovativ fəaliyyətin formalaşma xüsusiyyətləri**

İctimai, iqtisadi və sosial həyatda innovasiya fəaliyyətinin və elmi-texniki tərəqqinin nəticələrindən və nailiyyətlərindən istifadə ölkənin perspektiv inkişaf istiqamətlərinin müəyyən edilməsinə, insan kapitalının formalaşmasına və intellektual potensialın üzə çıxarılmasına, bu imkanlardan səmərəli istifadəyə, idarəetmə sisteminin təkmilləşdirilməsinə, informasiyalı cəmiyyətin, elektron hökumətin, innovasiyalı inqtisadiyyatın qurulmasına, rəqabətqabiliyyətli və elmtutumlu məhsul istehsalının təmin edilməsinə öz müsbət təsirini göstərir. Bütün bu və digər bu kimi mühüm amillər nəzərə alınmaqla artıq ölkədə əməli addımlar atılmaqdadır. Azərbaycan Respublikasında innovasiya fəaliyyətinin inkişaf zərurəti əsas götürülməklə, onun davamlı olaraq həyata həyata keçirilməsi məqsədilə zəruri hüquqi-normativ sənədlər, qanunvericilik aktları qəbul olunmaqdadır. Azərbaycan Respublikasında innovasiya fəaliyyətinin və elmi-texniki tərəqqinin inkişafı inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrlə müqayisədə öz zəifliyi ilə nəzərə çarpmaqdadır. Xüsusilə, belə xərclər istər dövlət büdcəsində, istərsə də ayrı-ayrı müəssisə, təşkilat və təsərrüfat subyektlərinin xərclərinin 1%-dən azını təşkil etməkdədir. Həmçinin, bu sahədəki maddi-texniki bazanın, kadr potensialının və infastruktur sisteminin səviyyəsi də aşağıdır. Ölkənin bu mühüm və aparıcı sahədəki geriliyini aradan qaldırmaq, onun qlobal innovasiya mühiti ilə ayaqlaşmasını, milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyini təmin etmək üçün daha ciddi addımların atılması xüsusi zərurətdən irəli gəlir.

Azərbaycan suveren bir dövlət kimi müstəqillik əldə etsə də, ölkədə sosial-iqtisadi inkişafın tədricən yüksəlişinə 1996-cı ildən başlanılmışdır. Ölkədə əldə olunan bir çox uğurlar artıq 2000-ci illərin ilk dövründən innovasiya fəaliyyətinə olan baxışları müsbət baxımdan dəyişmiş, müvafiq istiqamətdə istər dövlət, istərsə də özəl sektor səviyyəsində zəruri addımlar atılmağa başlanmışdır. Aparılan bütün bu araşdırmaların məntiqi mənası, mənşəyi, təbii ki, innovasiya anlayışının, innovasiya prosesinin bir-biri ilə əlaqəli şəkildə kifayət qədər açıqlamasını verir. Bütün bunlarla yanaşı, zənnimizcə, innovasiya, innovasiya fəaliyyəti ilə bağlı konseptual baxışları, fikirləri cəmləşdirərək, bu anlayışa, fəaliyyətə belə yanaşılması həm məntiqi, həm də müasirlik baxımından məqsədəuyğundur. İnnovasiya, innovasiya fəaliyyəti cəmiyyətdə, sosial-iqtisadi həyatda elmi-texniki və mütərəqqi yeniliklərin formalaşmasını, onların müxtəlif inkişaf istiqamətli tətbiqinə nail olunmasını və bu aspektdən dünyada, cəmiyyətdə, sosial-iqtisadi inkişafda mövcud olan problemlərin

## ƏDƏBİYYAT

1. "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası. Bakı, 2012.
2. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi". Bakı, 2016. http://www.president.az/articles/17670.
3. Бартенев С.А. Экономические теории и школы (история и современность). М.: Бек, 2015-452с.
4. Борисов Е.Ф. Экономическая теория, М: Инфра-М, 2011. с.458.
5. Чечелева Т.В. Экономическая теория. Минск, Юрайт, 2012. 448 с.
6. Экономическая теория. Москва, БЕК, 2009.
7. Коновалов В.М. Инновационная сага. М.: Изд. дом "Вильямс", 2005. 224с.
8. Кондратьев, Н.Д. Большие циклы конъюнктуры и теория предвидения. М. Экономика, 2011.
9. Глазьев С.Ю. Теория долгосрочного технико-экономического развития. М., БЕК. 2006.
10. Твисс Б. Управление научно-техническими нововведениями. М.: Экономика, 1989.



***Юсиф Ариз оглы Агаев***
***докторант АУК***


**Концептуальные основы и особенности разработки инновационной деятельности**


***Резюме***

В статье исследуются концептуальные основы формирования и развития инновационной деятельности. Оцениваются взгляды исследователей в соответствующей области, различия в них. Изучая правовую среду, созданную для развития инновационной деятельности в Азербайджане, определяются проблемы в этой сфере.


***Ключевые слова: инновация, инновационная деятельность, экономическое развитие, научно-технический прогресс.***


***Yusif Ariz Aghayev***
***candidate for a degree of ACU***


**Theoretical basis of innovation activity and features of development**


***Summary***

The article explores the fundamentals of the formation and development of innovation activity. The views of researchers in the relevant field, the differences in them are evaluated. By examining the legal environment created for the development of innovation activity in Azerbaijan, problems in this area are identified.


***Key words: innovation, innovation activity, economic development, scientific and technical promotion.***